# Respublika Gənclər Kitabxanasında "dəyirmi masa" təşkil edilib

**Respublika Gənclər Kitabxanasında 4 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi ilə birlikdə görkəmli dramaturq Cəfər Cabbarlının anadan olmasının 125 illiyi münasibətilə "Cabbarlının ədəbi irsi - varlığında bir dünya çırpınırdı" adlı "dəyirmi masa" təşkil edilib.**

Kitabxanadan bildirilib ki, Cəfər Cabbarlı yaradıcılığının yeniyetmə və gənclər arasında təbliği, əsərlərinin müzakirəsi məqsədilə təşkil edilən tədbirdə mərkəzin pedaqoji heyəti, dərnək üzvləri, məktəblilər, tələbə və gənclər iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda canını fəda etmiş qəhrəman Azərbaycan oğullarının xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Kitabxananın şöbə müdiri Qənirə Mustafayeva 1937-ci ildən Cəfər Cabbarlının adını daşıyan Respublika Gənclər Kitabxanasında Azərbaycan mədəniyyətinin, ədəbiyyatının görkəmli nümayəndələrinə həsr edilən tədbirlərin keçirilməsi zəruriyyətini vurğulayaraq, Cəfər Cabbarlının həyat və yaradıcılığına həsr edilən, kitabxananın hazırladığı elektron məlumat bazası və ədibin 125 illik yubileyi ilə əlaqədar yenidən çap edilməsi nəzərdə tutulan biblioqrafiya haqqında məlumat verib. Azərbaycan xalqının milli-mədəni sərvətinin, yüzilliklərlə ölçülən qədim tarixə malik mədəniyyətinin, ədəbiyyatının təbliği, gələcək nəsillərə ötürülməsi istiqamətində kitabxanaların rolunun əvəzsiz olduğunu bildirib.

Tədbirdə İnkişaf Mərkəzinin "Bədii qiraət" və "Məktəb teatrı" dərnəklərinin üzvlərinin iştirakı ilə Cəfər Cabbarlının "Firuzə" hekayəsi əsasında hazırlanan tamaşa nümayiş etdirilib, şeirlərindən parçalar səsləndirilib.



Azərbaycan.- 2024.-9 may, № 95.- S.15.